Azadlıq Radiosu

DÜNYA

# Almaniya tacikistanlı fəalı vətəninə göndərdi – O, dərhal həbs edildi

1 dəqiqə öncə




Əsədullo Boboyev

Almaniya tacikistanlı müxalifət fəalı **Əsədullo Boboyev**i vətəninə deportasiya edib. Bu barədə Azadlıq Radiosunun tacik xidməti "Ozodi" məlumat yayıb.

Fəalın həyat yoldaşı **Mastona Fayzulloyeva**nın sözlərinə görə, iyunun 20-də əri ona zəng edərək oğlu ilə birlikdə Münhendən Düşənbəyə yola salındığını bildirib. Onlar Tacikistana çatan kimi uşaq nənəsinə təhvil verilib, Boboyev isə dərhal istintaq təcridxanasına aparılıb.

Fəalın deportasiyasını Avropada fəaliyyət göstərən "Tacikistanın İslahatları və İnkişafı" müxalifət hərəkatının rəhbəri **Şərofiddin Qadoyev** də təsdiqləyib. O bildirib ki, vəkil vasitəsilə Almaniya məhkəməsinə Boboyevin ölkəsində təqib ediləcəyi və işgəncə

görəcəyi ilə əlaqədar onlarla səhifəlik sübut təqdim olunub. Məhkəmə bu arqumentləri nəzərə almayıb.

**"Onun iyulun 1-nə bileti var idi və hazırlaşmağa vaxtı çatırdı. Amma qohumlarının xəbəri olmadan həm Əsədullonu, həm də oğlunu ölkədən göndərdilər"**, —Qadoyev vurğulayıb.

16 iyun

## Almaniya məhkəməsi tacik müxalifətçiyə iyulun 1-dək vaxt verdi

Almaniyadan deportasiya olunmaq təhlükəsi ilə üzləşən tacik fəala məhkəmə iyulun 1-dək vaxt verib. O, Tacikistana qaytarılacağı təqdirdə həbs ediləcəyinə dair məhkəməyə etibarlı sübutlar təqdim etməlidir. Bu iş Avropada sığınacaq tapan Tacikistan müxalifətçilərinin narahatlığını daha da artırıb.

**Əsədullo Boboyev** Avropada fəaliyyət göstərən "Tacikistanın İslahat və İnkişafı" (Tİİ) müxalif hərəkatının üzvüdür. O, Almaniyanın şimal-qərbində yerləşən Kleve şəhərində müvəqqəti yaşayış icazəsi ilə yaşayırdı. Amma həmin icazənin müddəti artıq başa çatıb.

Boboyev AzadlıqRadiosuna bildirib ki, həyat yoldaşı və iki qızının Almaniyada qalmasına icazə verilib. Özü və yetkinlik yaşına çatmış oğlu isə iyunun 8-də miqrasiya təcridxanasına yerləşdirilib və hazırda deportasiya riski ilə üz-üzədirlər.

Prezident Emoməli Rəhmon 1992-ci ildən bəri Tacikistanı sərt üsullarla idarə edir. O, siyasi rəqiblərinə qarşı genişmiqyaslı təzyiq kampaniyası aparıb. Hökumət ölkənin iki əsas müxalif qüvvəsini – Tacikistan İslam İntibah Partiyasını (TİİP) və "Qrup 24" hərəkatını terror təşkilatı elan edərək fəaliyyətinə qadağa qoyub.

Hazırda müxalifətçilərin böyük hissəsi həbsdədir, onlarla insan isə ölkəni tərk etmək məcburiyyətində qalıb.

## Ekstremizm ittihamı

Saxlanıldığı mərkəzdən telefonla müsahibəsində 54 yaşlı Boboyev bildirib ki, Tacikistan hakimiyyəti ona qarşı ekstremizm ittihamı ilə cinayət işi açıb. Düşənbə rəhbərliyi bu ittihamdan siyasi rəqiblərinə və tənqidçilərinə qarşı tez-tez bir alət kimi istifadə edir.

Tacikistanda Boboyev sosial şəbəkələrdə hökumət əleyhinə kəskin paylaşımları ilə tanınır.

**"Almaniya məhkəməsi mənə iyulun 1-dək vaxt verib ki, Tacikistana qaytarılacağım halda təhlükə ilə üzləşəcəyimi sübut edim"**, –2017-ci ildə ölkədən çıxan Boboyev bildirib.

AzadlıqRadiosu məsələ ilə bağlı Almaniyanın rəsmi qurumlarından hələlik cavab ala bilməyib.

TİI-nin rəhbəri **Şərofiddin Qadoyev** deyib ki, təşkilat Boboyevin hüquqlarını müdafiə etmək üçün vəkil tutub.

AzadlıqRadiosu Tacikistan hakimiyyətindən Boboyevə cinayət işinin açıldığını rəsmən təsdiqlədə bilməyib.

Son illər Almaniya və digər Avropa ölkələrindən deportasiya olunan bir sıra tacik müxalifətçilər və hökumət tənqidçiləri ölkəyə qayıdan kimi həbs edilib, uzunmüddətli azadlıqdan məhrumetmə cəzalarına məhkum olunublar.

## Fərqli fikrə görə on illərlə həbs

2024-cü ildə Polşadan deportasiya edilən tacik fəal **Fərrux İkromov**a 23 il həbs cəzası verilib. Onun məhkəmə prosesi qapalı keçirilib, hakimiyyət orqanları bu iş barədə ictimaiyyətə açıqlama verməyib. Müxalifət İkromovun 2023-cü ildə Berlində keçirilən etiraz aksiyasında iştirakına görə hədəfə alındığını iddia edir. O zaman Tacikistan müxalifətinin tərəfdarları Rəhmonun Almaniyaya səfəri zamanı onun kortejinə yumurta atmışdılar.




Hizbullo Şovalizodə

Fəaliyyəti qadağan olunmuş TİİP-in üzvü **Hizbullo Şovalizodə** 2020-ci ildə Avstriyadan deportasiya edilib. Bir neçə ay sonra ona dövlətə xəyanət ittihamı ilə 20 il həbs cəzası kəsilib.

Ötən il Almaniyada yaşayan Tacikistan vətəndaşı **Səidəzəm Rəhmonov** sənədlərini yeniləmək üçün Düşənbəyə səfəri zamanı saxlanılıb və nəzarət altında olarkən müəmmalı şəkildə ölüb. Ailəsi və yaxınları Rəhmonovun bədənində ağır döyülmə və elektrik cərəyanı ilə işgəncə izləri olduğunu bildiriblər. Mənbələrin məlumatına görə, Rəhmonov dini ekstremizmdə və terror aktı planlaşdırmaqda ittiham olunub. Amma onun hər hansı bir siyasi təşkilatla əlaqəsinin olmadığı vurğulanır.

## Dissidentlər qorxu içində

AzadlıqRadiosunun tacik xidmətinin müxbiri **Mirzonəbi Xoliqzod** yazır ki, Boboyevin Almaniyada saxlanılması mühacirətdə yaşayan digər tacik müxalifətçilərin təşvişini artırıb.

2016-cı ildən Avropada yaşayan "Qrup 24" üzvü **İsomiddin Aşurov** deyir ki, bir çoxları növbənin onlara çatacağından ehtiyat edir. O, Tacikistana qaytarılacağı halda eyni acı aqibətlə üzləşəcəyindən qorxur: **"Tacikistandakı qohumlarım mənə dedilər ki, hüquq-mühafizə orqanları mənim və "Qrup 24" üzvü olan iki əmimin fotolarını yayaraq barəmizdə axtarış elan edib, yerimizi deyənlərə isə pul mükafatı vəd olunub".**

Avropadakı müxalif siyasətçi **Fərhod Odinayev**in sözlərinə görə, Almaniya hökuməti əvvəllər də bəzi tacik sığınacaq axtaranlardan öz ölkələrində onlara qarşı cinayət işi başlandığına dair rəsmi sübut tələb edib.

**"Cinayət işinin olmaması həmin şəxsin təqib edilməyəcəyi anlamına gəlmir. Deportasiyadan sonra Tacikistanda həbs edilənlərin çoxunun adı Düşənbənin rəsmi axtarış siyahısında ümumiyyətlə olmayıb"**, – Odinayev AzadlıqRadiosuna bildirib.


## Buna da bax:

Fransa məhkəməsinin Mirzəli qərarı: Sürgündə də təqib bitmir – Sübut olundu

HRW: Azərbaycan onlayn çıxışlardan süni cinayət işləri uydurur

Gürcüstan yaşayış icazəsi qaydalarını sərtləşdirir: Saxta nikah cinayət sayılacaq


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur